# PEYĞƏMBƏR VƏ İMAMLARIN İSMƏTİ

**Muhəmməd Rza Kəlanfəribayi**

***Gürcüstanda yerləşən "Əl-Mustafa" Dini- Elmi Mərkəzin tələbə kollektivi və təhqiqat qrupunun əməkdaşlığı ilə***

**Tbilisi 2012**

# Peyğəmbər və imamların isməti

*Gürcüstan Müsəlmanlarının*
*dini suallarına cavab №1*

Müəllif:
**M. R. Kəlanfəribayi**
*Təhqiqat qrupunun əməkdaşlığı ilə*

Tərcümə edən:
**R. İgidov**

Redaktor:
**Ə. Dəlivəlli, R.İsmayılov**

Dizayn:
**E. Bayramov**

Kompüterdə yığdı:
**B. Məmmədova**

© *Al-mustafa Müəssisəsi*
***Yazıçılar və Təcüməçilər Birliyi***
***Yay 2012***

**Ünvan:** Gürcüstan, Tibilisi, Krcanisi - Poniçala Al-mustafa Elmi Mərkəzi
Tel: 00995790891666
Site: www.almustafa.ge
E-mail: contact@almustafa.ge

## Ön soz

İmam Əli (ə) kəlamlarının birində buyurmuşdur: “Hər kəs dəyərli sual etsə öyrənər və hər kəs öyrənsə dəyərli sual edər”.

Bəli, hər kəsin sualları alidirsə onun cavabını mütləq elm və dünyagörüşdə tapacaq.

Cəmiyyət və mədəniyyətin qurtuluşu və dünya görüşü həqiqətə-yetirən sualların və məntiqli cavabların sayəsində mümkündür. Şübhəsiz sual və cavablar etiqad və məlumat əldə etmək üçün gözəl bir vasitədir. Bu barədə bir neçə dəyərli nöqtəyə diqqət etmək lazımdır:

Əvvəl budur ki, sual edən öyrənmək və həqiqətə varmaq niyyətində olmalıdır. Sualı cavablandıran isə həmin mövzuda mütəxəssis və ustad olmalıdır. Eyni zamanda belə güman edilməməlidir ki, bu cavab sonuncu və ən kamil olandır. Əksinə mümkündür cavabı verilən sualın belə daha qaneedici digər cavabları da olsun. Məncə nisbətən əhatəli cavablar və təhlillər dəyərli ustadların, tələbələrin və təhqiqatçıların düşüncələrini bir araya topladıqda mümkün ola bilər.

Elə buna görə də “Əl-Mustafa” Beynəlxalq Universitetinin Gürcüstandakı nümayəndəliyi camaat arasında dini mövzuda yaranan şübhələri cavablandırmaq üçün elmi tədqiqat və təhqiqat qrupu yaratdı. Bu qrup müsəlman ictimaiyyətinin müxtəlif etiqadi, şərii, əxlaqi, elmi və s. sahələrdə yaranan suallarını araşdıraraq cavablandıraraq, cəmiyyətin bu sahədəki ehtiyaclarını fəxrlə ödəyir.

Onu da qeyd etmək yerinə düşərdi ki, dini elm və mədəniyyətin yayılmasında, şübhələri cavablayan təhqiqat birliyi aşağıdakı elmi qruplara malikdir:

1. Quran və hədis qrupu;
2. Fəlsəfə və kəlam qrupu;
3. Əxlaq və irfan qrupu;
4. Tərbiyə və psixologiya qrupu;
5. Tarix qrupu;

Sizə təqdim olan bu kitabda Höccətul İslam vəl-muslimin Məhəmməd Rza Kəlanfəribayinin və tələbələrdən ibarət təhqiqat qrupunun vasitəsi ilə

Peyğəmbər (s) və imamların isməti barədə yaranan suallar cavablandırılmışdır.

Elmi heyətin əsas üzvləri aşağıda qeyd olunanlardan ibarətdir:

Hacı Rizvan İsmayılov, ***ədəbi və elmi redaktor***
Kərbəlayi Firdovsi Qasımov, ***elmi nəzarətçi***
Hacı Ramin İgidov, ***texniki redaktor, korektor və tərcüməçi***
Hacı Qurban Murquzov, ***sual və şübhələri toplayan***
Məşədi Vidadi Qurbanov, ***tərcüməçi və elmi heyətin əməkdaşı***
Hacı Elcan Hüseynov, ***tərcüməçi və elmi heyətin əməkdaşı***
Məşədi Elçin Əliyev, ***tərcüməçi və elmi heyətin əməkdaşı***
Hacı Rahid Kərimov, ***elmi heyətin əməkdaşı***
Kərbəlayi Namiq Hüseyinov, ***elmi heyətin əməkdaşı***
Hacı Əziz Nəbiyev, ***elmi heyətin əməkdaşı***

Sonda kitabın ərsəyə yetişməsində zəhməti olan xalis niyyətli zəhmətkeş əməkdaşlarıma təşəkkürümü bildirir, uca Yaradandan Əhli-beyt maarifinin çatdırılması yolunda onlara müvəffəqiyyətlər arzulayıram. Ümidvaram bu kitabın sayəsində Peyğəmbər (s) və Əhli-beytin (ə) məqamı onları sevənlərə, xüsusən də mütəfəkkirlərə daha da bəlli olacaqdır.

**Məhəmməd Rza Kəlanfəribayi**
Əl-Mustafa Beynəlxalq Universitetinin Gurcustan üzrə nümayəndəsi